AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

*Interview – Müsahibə*

# ARCHAEOLOGIST SCHOLAR ASADULLA JAFAROV: "HUMANITY EMERGED FROM THE CAVE AND CONQUERED THE WORLD"

# ARXEOLOQ ALİM ƏSƏDULLA CƏFƏROV: "MAĞARADAN ÇIXAN İNSAN BƏŞƏRİYYƏTİ FƏTH ETDİ"

**Aygün Məmmədova**[1]

**UOT:** 902(479.24)(092):903.21
**KBT:** 63.4(2Az)
**HoS:** 124
**HoS-IW:** 3
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.232-238



*Müsahibimiz Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun "Daş dövrü arxeologiyası" şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Əsədulla Qüdrət oğlu Cəfərovdur.*

**- Hörmətli Əsədulla müəllim! Jurnalımızın bu rubrikasında məhz sizinlə müsahibə hazırlamaq qərarımız təsadüfi deyil. Siz 58 ildir ki, Azərbaycan Milli Elmlər Akademiyasında çalışırsınız. Elmi-ictimai fəaliyyətinizi izləyənlər bilir ki, həyatınız zəngin məqamlarla doludur. Siz, 1975-1979-cu illərdə Leninqradda, 2001-2003-cü illərdə 7 Avropa alimi ilə birlikdə Paris, Nis, Kənson, Perpinyan, Tbilisi, Bakı şəhərlərində birgə elmi tədqiqatlar aparmısınız. Tələbəlik dövrünüz, müəllimləriniz barədə xatirələrinizi bilmək maraqlıdır.**

- "Metafizika" beynəlxalq fəlsəfi və fənlərarası araşdırmalar jurnalının yeni rubrikasını salamlayıram və müsahibəyə dəvət etdiyiniz üçün təşəkkür edirəm. Allahın, dövlətin, xalqımın verdiyi qismətdir ki, mən məhz arxeoloq ömrü yaşamışam.

İlk təhsilimi Masallı rayonunun Ərkivan kəndindəki "Ağ məktəb" deyilən məktəbdə almışam. Hazırda bu məktəb Cəfər Cabbarlının adını daşıyır.

Yaxşı yadımdadır, hələ 7-ci sinifdə ikən mən diş həkimi olmağı arzulayırdım.

[1] Tarix üzrə fəlsəfə doktoru,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü; Bakı, Azərbaycan
E-mail: aygun_kons@mail.ru
https://orcid.org/0000-0002-0274-5191
**Məqaləyə istinad:** Məmmədova, A. [2025]. Arxeoloq Alim Əsədulla Cəfərov: "Mağaradan Çıxan İnsan Bəşəriyyəti Fəth Etdi". *History of Science jurnalı*, *6*(5), səh.232-238.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.232-238

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 28.10.2025*
*Yenidən baxılıb: 28.11.2025*
*Təsdiqlənib: 01.12.2025*
*Dərc olunub: 15.12.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

SSRİ dövlət xadimi Leonid Brejnev hakimiyyətə gəldikdən sonra orta təhsilin on il olmasına qərar verilmişdi.

9 və 10-cu siniflərdə “Tarix” fənni üzrə müəllimim Xanoğlan müəllim olub. Tarixi də məhz o mənə sevdirmişdi. Həmin vaxtdan bu günə qədər tarixi özümə sirdaş, dayaq seçmişəm. Tarixdən mən ilham alıram... Bu günədək əldə etdiklərimə görə valideynlərimə, müəllimlərimə, xalqıma, daha sonra dövlətimə minnətdaram. Şəxsi sosioloji araşdırmalarıma əsaslanaraq bu qənaətlərə gəlmişəm ki, insan savadlılıq yolunu üstün tutmalıdır. Mən həyatımda naqislikdən uzaq olmağa çalışmışam. İnsan yırtıcı yox, yaradıcı olmalıdır.O, yer üzünün əşrəfidir.

Orta təhsilimi başa vurduqdan sonra Azərbaycan Pedaqoji İnstitutuna sənədlərimi təqdim etmişdim. Lakin qəbul imtahanlarında uğur qazana bilmədim. Bu hadisə məndə ali təhsil almaq həvəsini də zəiflətmişdi. O vaxt çox fikir eləmişdim ki, nədən belə oldu...



**- Deməli, tale sizi tamam ayrı sahəyə yönəldəcəkmiş?!**

- Bəli, görünür belədir... Daha sonra mən bir il əmək fəaliyyəti ilə məşğul oldum. Ali məktəbə qəbul olmaq arzusu məni tərk etmədiyi üçün 1967-ci ildə Azərbaycan Dövlət Universitetinin “Tarix” fakültəsinə sənədlərimi təqdim etdim. Bu dəfə ali məktəbə daxil oldum. Elə həmin ildə mən həm də Həsənbəy Zərdabi adına Təbiət Tarixi Muzeyində əmək fəaliyyətinə başladım. Çalışdığım muzey hazırkı Milli Azərbaycan Tarixi Muzeyi ilə üzbəüz, daha dəqiq desək, Azərbaycan Beynəlxalq Bankının yerləşdiyi binada yerləşirdi. Məhz həmin muzeydə mən dövrünün ziyalıları - Dəmir Hacıyev, Rəhim bəy Cəfərov və Fuad Axundovla tanış olmuşam. Muzeydə Dəmir müəllimlə birgə çalışdığım illərdə mənə tapşırılan işləri müvəffəqiyyətlə yerinə yetirməyə, vaxtında təhvil verməyə çalışırdım. O, mənim işlərimi bəyənirdi, yüksək təqdir edirdi...

1968-ci ildə fevral ayında Nazirlər Kabinetinin qərarı əsasında Təbiət Tarixi Muzeyi Bakı Dövlət Universitetindən ayrıldı və Elmlər Akademiyasının müəssisəsi olaraq təsdiq edildi. Elə həmin il Azıx mağarasındakı tədqiqatlar nəticəsində qədim insana məxsus alt çənə sümüyü aşkar edilmişdi... Bu xəbəri eşidən akademik Həsən Abdullayev çox sevinmiş, Dəmir müəllimi təbrik etmişdi.

1970-ci ildə çalışdığım muzeydə ixtisarlar aparıldı, digər əməkdaşlar kimi mən də işdən azad edildim. Lakin bu peşmançılığım uzun davam etmədi... Növbəti il, yəni 24 mart 1971-ci ildə “Daş dövrünün arxeologiyası” şöbəsi yaradıldı. Dəmir Hacıyevin zəhməti ilə yaradılan bu şöbədə mən də işə qəbul edildim.

1971-ci ildə ilk dəfə elmi rəhbərim Məmmədəli müəllimlə birgə Azıx mağarasına getmişdik. 1994-cü ilədək onunla birgə tədqiqatlarda iştirak etmişəm.

**- Siz hələ tələbə ikən Qarabağa səfər edərək, tədqiqatlarda iştirak etmisiniz. Bəs hərbi xidməti harada etmisiniz?**

- Bəli, elədir... 1973-cü ildə ali təhsilimi başa vurduqdan sonra Rusiyanın Orsk şəhərində hərbi xidmətdə olmuşam. Sərt, soyuq iqlim şəraitində keçən əsgərlik dövründə mən hava hücumundan müdafiə hissəsində operator olmuşam. Hətta Leonid Brejnev Hindistana səfər

edəndə, onun təyyarəsini müşayiət etmişdik... Bu əslində hərbi sirr idi, bunu söyləmək bizə qadağan edilmişdi.

Əsgərlik xidmətimi başa vurub Bakıya qayıtdım və Leninqrad şəhərinə ezam edildim.

**- Tərcümeyi-halınızdan məlumdur ki, siz SSRİ Elmlər Akademiyası Arxeologiya İnstitutunun Leninqrad bölməsində təcrübəçi-tədqiqatçı işləmisiniz. Orada hansı alimlərlə görüşmüsünüz, kiminlə çalışmısınız?**

- SSRİ Elmlər Akademiyası Arxeologiya İnstitutunun Leninqrad bölməsində təcrübəçi-tədqiqatçı işləyəndə mən dünya şöhrətli paleolitşünas alim, professor Vasili Lübinlə birgə çalışmışam. Həmin illərdə mən daş dövrü arxeologiyasını öyrənən fransız alimlərinin əsərlərini araşdırmağa başlamışdım.

**- Namizədlik dissertasiyanızın mövzusu necə adlanırdı?**

- “Azərbaycanın Mustye mədəniyyəti: Tağlar mağarası” adlı namizədlik dissertasiyamı 1979-cu ildə müdafiə etmişəm. Həm Rusiya, həm də Azərbaycan alimlərinin rəyləri əsasında müdafiəyə təqdim edilən dissertasiya işimin aparıcı müəssisəsi Ukrayna Dövlət Universiteti təyin edildi. 1980-ci il noyabrın 28-də mənə “Azərbaycanın mustye mədəniyyəti” əsərinə görə “Lenin mükafatı laureatı” adı verilmişdi... Ümummilli lider Heydər Əliyev bu münasibətlə Gülüstan sarayında keçirilən tədbirdə məni təbrik eləmişdi.

Görkəmli alim, professor Lübinin elmi rəhbərlik etdiyi bu işin yüksək keyfiyyəti, vaxtında yerinə yetirilməsi və digər müsbət cəhətləri nəzərə alındı və 2 aydan sonra tarix elmləri namizədi diplomuna layiq görüldüm.



**- Bəs doktorluq dissertasiyanızın elmi məsləhətçisi kim idi?**

- “Azərbaycanın orta paleoliti” adlı doktorluq dissertasiya işimə elmi məsləhətçi təyin edilməmişdi. Həm Dəmir müəllim, həm arxeoloq alimlər Qüdrət İsmayılzadə, İdeal Nərimanovun rəsmi opponentlər olaraq təyin edildikləri bu elmi işimi mən Azərbaycan EA Tarix İnstitutunun Müdafiə Şurasının iclasında uğurla müdafiə etmişəm.

**- Siz Məmmədəli müəllimlə birgə digər qədim insan məskənləri, o cümlədən Tağlar mağarası, Naxçıvandakı düşərgələri kəşf etmisiniz. Belə abidələr sırasında hansını ən önəmli hesab edirsiniz? Ötən əsrin tədqiqatları ilə müasir dövr nəticələri arasında hansı fərqlər vardır?**

- Azərbaycanda qədim insan məskənləri sırasında məhz Azıx mağarası ən öndə olanıdır. Bu tükənməz dəryadır. Buradakı araşdırmalar sayəsində ibtidai insanların təsərrüfatı, qədim dövrün texnikası, tipologiyası, odun meydana gəlməsi, miqrasiya prosesləri ilə əlaqədar problemlər həllini tapmışdır.

Ötən əsrin 70 və 80-ci illərində Məmmədəli müəllim Azıx mağarasının 7, 8 və 9-cu təbəqələrini öyrənmişdi. O, bu mədəniyyəti “Quruçay” adı ilə arxeologiyamıza təsdiq etməyə nail olmuşdu.

Çox gözəl haldır ki, Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə qəhrəman ordumuz 8 noyabr 2020-ci ildə əvvəlcə Şuşa, 9 noyabrda isə Azıx mağarasını işğaldan azad etdi. İşğaldan azad ediləndən sonra mən də digər alimlər kimi bu məkanı ziyarət etmişəm. Orada gördüklərim, şahidi olduqlarım barədə bədii kitab yazıram...

Sualınızın cavabı olaraq bildirməliyəm ki, daş dövrü çox geniş anlayışdır. Alimlərin borcu bəşəriyyəti qorumaqdır. Ermәni qüvvələrinə xidmət edənlər Azərbaycanın, o cümlədən Qarabağın tarixini daim saxtalaşdırırdılar. Lakin daş dövrünə aid materiallar bu prosesdən kənarda qalırdı. Hər kəs bu sahədə savadlı mütəxəssis ola bilməz. Fikrimcə, bu

sahəni bilmək üçün paleontologiya, paleoantropologiya, paleocoğrafiya, coğrafiya, geomorfologiya, stratiqrafiya, ibtidai icma tarixini və d. elmləri bilmək vacibdir. Bunun üçün yüksək savad, bilik tələb olunur.

Lerik, Lənkəran, Astara, Masallı, Yardımlıda arxeoloji tədqiqat işləri aparmışam. Araşdırdığım Buzeyir, Zuvandçay (Lerik rayonu) və Alar (Yardımlı rayonu) düşərgə-mağaralarına istinadən deyə bilərəm ki, 1985-ci ilə qədər cənub bölgəsində insanların məskunlaşması tarixi 10-15 min il əvvələ aid edilirdi, lakin sonrakı illərdə orada əldə edilmiş arxeoloji nümunələr tədqiq edildi və bu bölgədə insanların məskunlaşma tarixinin 100-120 min il əvvələ gedib çıxdığı aydın oldu.

**- Müəllimin insan həyatına, fəaliyyətinə təsiri danılmazdır. Siz öz fəaliyyətinizdə hansı alimləri özünüzə nümunə bilmisiniz?**

- Əliəşrəf Məmmədov, Naib Şirinov, Dəmir Hacıyev, Sabir Əliyev, İdeal Nərimanov və d. Azərbaycan alimləri ilə birgə çalışmışam. Onlarla olan ünsiyyətim, təcrübə mübadiləm sayəsində mən arxeologiya elmini daha çox sevməyə nail olmuşam.

**- Oxucularımız üçün də maraqlı olar. Azıx materiallarına aid ilk sərgi nə zaman təşkil edilmişdir?**



Muzeyinin ekspozisiyasının ilk zalında Azıx insanının çənə sümüyü eksponatlar sırasındadır. Məhz bu hal müasir dövrümüzdə tərifəlayiq işlərdəndir. Muzeyin Arxeologiya fondunda daş dövrü arxeologiyasına aid materiallar həm mənim tərəfimdən, həm də muzey mütəxəssisləri tərəfindən daim tədqiq və təbliğ edilir. Bu materialları muzeyə mən təhvil vermişəm.

**- Biliyinizi pedaqoji fəaliyyətinizdə də tətbiq etmisinizmi? Müasir təhsildəki problemlərin həllini necə görürsünüz?**

- Təbii ki, hər bir alim öz elmini öyrətməlidir. 33 illik pedaqoji fəaliyyətimdə və hazırda da mən bir çox xarici alimlərlə olan ünsiyyətim, konfranslardakı məruzələrimin başlıca nəticələrini tətbiq etmişəm.

Hazırkı ildə Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi tamam oldu. Bu münasibətlə mən Mərkəzi Elmi Kitabxanaya şəxsi kitabxanamdan 401 ədəd (74 ədəd jurnal, 327 ədəd kitab) hədiyyə etmişəm.

Məhəmməd peyğəmbər də buyurub ki, qiyamət günündə alimin mürəkkəbi şəhid qanından üstün tutulacaq. Həqiqi alim olmaq üçün məktəb keçmək mütləqdir. Elmlə tədris vəhdətdədir.

Müasir dövrümüzdə bu prosesi orta məktəbdə başlamaq lazımdır. Televiziya verilişlərində müxtəlif elmlərin təbliğinə, mühazirələrə daha çox yer verilməlidir. Ali məktəblərlə Elmlər Akademiyası mütəxəssisləri birgə çalışmalı, savadlı kadrlar yetişdirməlidirlər. Akademiya alimlərinin ali məktəbdə dərs deməsini yüksək dəyərləndirirəm.

2019-cu ildən mən ali məktəblərdə ustad mühazirələri təqdim edirəm və qəbul imtahanlarında 500-dən artıq bal toplayan "Tarix" fakültəsi tələbələrinə kitablarımı hədiyyə edirəm. Son 5 ildə 10 tələbəyə belə hədiyyəmi vermişəm.

2020-ci ildəki şanlı qələbəmiz də məhz xalqımızın, dövlət rəhbərimizin uzaqgörən siyasəti, ən vacib dəyər olan savadı nəticəsində əldə edildi.




**- Bu ilin mart ayında London şəhərində müəllifi olduğunuz, ingilis dilində nəşr edilmiş “Azıx mağarası - Azərbaycan ərazisində ən qədim yaşayış məskəni” kitabının təqdimat mərasimi keçirilmişdir. Əsərin yazılma ideyası, əsas qayəsi haqqında məlumat almaq istərdik.**

- Beynəlxalq əhəmiyyətli Azıx mağarasının öyrənilmə tarixi ötən əsrin 60-cı illərindən başlayır. Mərhum alim, mənim elmi rəhbərim Məmmədəli Hüseynovun bu ərazidə etdiyi ilkin arxeoloji araşdırmalar sonrakı illərdə daha da təkmilləşdirilmiş və Azərbaycanın qədim insan düşərgələri haqqında əsaslı nailiyyətlər əldə edilmişdir.

Araşdırmalarımız sayəsində üzə çıxan nəticələri erməni tədqiqatçılar heç də birmənalı qarşılamayıblar. Onlar Azıx mağarasından silah anbarı olaraq istifadə ediblər, qanuna zidd əməllər edərək burada qanunsuz arxeoloji qazıntılar aparıblar. Hətta xarici alimləri də bu əməllərinə cəlb edən separatçıların əsas məqsədi Azərbaycanın bu qədim sərvətini özününkü etmək idi... Lakin onların bu istəyi həyata keçmədi.




Azərbaycanın mərd oğullarının və Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi sayəsində Qarabağ ərazisi işğaldan azad edildi və Azıx mağarası ikinci həyat qazandı...

Azərbaycan ərazisindəki ən qədim yaşayış məskəni, ilk bəşəriyyət ocağı olan Azıx illərdir bir sıra araşdırmalarda öyrənilsə də müasir dövrümüzdə bu abidənin beynəlxalq səviyyədə, yəni xarici dillərdə tanıdılması zərurəti bir alim olaraq məni daim düşündürürdü.

Azıx mağarasını mən gənclik illərimdən öyrənməyə başlamışam. Lakin ümumiyyətlə Azıx mağarasının öyrənilmə prosesini 3 tarixi mərhələyə ayırmaq mümkündür:

1) 1960-1974-cü illər. Bu dövrdə yalnız azərbaycanlı alimlər araşdırmalar edirdilər.

2) 1974-1985-ci illər. Bu illərdə həm yerli, həm də Rusiyalı alimlər (professor Veliçko və b.) bu abidəni öyrənirdilər. Bu prosesdə Dəmir Hacıyev, Məmmədəli Hüseynov və mən də iştirak etmişəm. EA-nın Rəyasət Heyətində Azıx mağarası haqqında ilk məruzəni də məhz bu illərdə rusiyalı alim təqdim etmişdi. 1983-cü ildə mən və müəllimim Naxçıvanda Qazma düşərgəsini kəşf etmişdik. 1985-ci ildə Buzeyir düşərgəsini, daha sonralar isə rəhbərliyimlə Lerikin Zuvandçay sahilindəki düşərgəsini kəşf etmişik.

1986-ci ildə mən Məmmədəli müəllimlə birgə Azıx mağarasında, növbəti ildə isə Kəlbəcər rayonunda Orta Şurtan abidəsində arxeoloji qazıntılarda iştirak etmişdik. Həmin illərdə Mansur müəllim də bizimlə çalışıbdır.

60-80-ci illərdə aparılmış arxeoloji qazıntılar sayəsində 10 000-dən artıq material tapılmış və Quruçay mədəniyyətinin 2,5 milyon ildən artıq olduğu tərəfimizdən müəyyən edilmişdir. Qədim, orta Aşel dövrünün tapıntıları ən maraqlı faktlardandır.

3) 2001-2005-ci illərdə mənim Avropalı alimlərlə birgə aparılmış elmi, praktiki araşdırmalarım sayəsində qədim insanların Azıxdan Avropaya miqrasiya etdiyi müəyyən edilmişdir. Həmin illərdə mən Fransanın bir sıra şəhərlərinə ezam edilərək, görkəmli mütəxəssislərlə işləmək şansı qazanmışdım. Bununla da Azıxın elmi tədqiqinin III mərhələsi başladı.

Azərbaycanda nəşr edilən bir sıra əsərlərin müəllifi olsam da, Azıx mağarasına həsr edilmiş 8 müəllifdən ibarət rus dilindəki monoqrafiyam 2021-ci ildə nəşr olundu.

**- Bəli, çox yaxşı xatırlayıram. Həmin əsərin təqdimat mərasimində iştirak etmişdim...**

- Daha sonralar təkliflərim əsasında Azıx mağarasının dünya arxeologiyasında, əsasən də paleoantropologiyasında rolu nəzərə alındı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə 2024-cü ildə monoqrafiya ingilis dilinə tərcümə edilərək nəşr edildi.




2025-ci ilin mart ayında London şəhərindəki Olimpiya Mərkəzində təşkil edilən Beynəlxalq Kitab Sərgisinə məhz bu əsərlə qatılmağı qərara aldım. 60-dan çox ölkənin qatıldığı bu tədbirdə Azərbaycan Diasporunun üzvləri, din xadimləri, tələbələr və digər iştirakçıların çoxsaylı suallarına cavab verdim. Bu əsər Azərbaycanı sevməyən, tariximizi yalançı və səhv iddialarla təqdim edənlərə ən doğru cavab, elm mədəniyyətimizin ən görkəmli nailiyyəti oldu. Bu əsərin tərcüməsi və nəşrinə görə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə, Azərbaycanın Londondakı səfiri E.Süleymanova və səfirlik əməkdaşlarına təşəkkür edirəm.

**- Müəllifi olduğunuz əsərlərdə araşdırılmağa cəlb etdiyiniz qədim insan düşərgələri sayəsində nəinki Qafqazın, həm də Avropanın daş dövrü və ibtidai icma tarixinin ayrı-ayrı inkişaf mərhələləri haqqında əsaslı nəticələr əldə edilmişdir. Tağlar, Qazma, Orta Şurtan, Buzeyir və Zuvandçay paleolit düşərgələri ilə əlaqədar gələcək planlarınızı bilmək istərdik.**

- Hazırkı il həyata keçirilən tədbirlər sayəsində Buzeyir və Zuvandçay düşərgələrinə yeni yollar açılmışdır. Məhz bu turizm marşrutları dövlətimizə yeni gəlirlərin əldə edilməsinə vasitəçi olmaqla yanaşı, həm də tariximizin tanıdılmasına xidmət edəcəkdir. Məhz bu məlumatlar insanın mağaradan çıxıb dünyanı fəth etməsini açıqlayacaq...

**- Azıx mağarası ilə əlaqədar gələcək planlarda abidənin qorunması, ona zərərin dəyməsinin qarşısının alınması üçün hansı təkliflərinizi bildirmək istəyirsiniz?**

- Abidənin qorunması, onun gələcək nəsillərə çatdırılması hər bir dövrdə insanı düşündürən problemlərdəndir. Təəssüf ki, hər insan buna riayət etmir və nəticədə arzuolunmaz hallar yaranır. Təklif edirəm ki, azad, abad Qarabağın dirçəlişi məqsədilə edilən işlərdə Azıx mağarasının təhlükəsizliyi də qorunsun. Bunun üçün həmin abidədə təşkil edilən sərgilər üçün arxeoloji materialların mulyajları hazırlanmalı, elektron vasitələrə - prezentasiyalara üstünlük verilməlidir.

**- Müasir dövrdə, qloballaşan dünyada süni zəkanın tətbiqi geniş yayılıb. Azərbaycanın daş dövrü abidələrinin təbliği üçün məktəblilər, tələbələr üçün nəzərdə tutulan videoroliklərin tərtibinə münasibətinizi bilmək istərdik.**

- Bu işdə hər kəs, xüsusən alimlər, dizaynerlər, sənətkarlar fəal olmalıdır. Təbiət abidələrinin yox olmaması üçün elmin inkişafı vacibdir. Hətta istər yerli, istərsə də xarici qonaq qəbul etməyin də elmi əsası var.

Mən digər muzeylərdə olduğu kimi Milli Azərbaycan Tarixi Muzeyində dərs deyəndə, bütün bu vacib amilləri demişəm. İncəsənət, rəssamlıq həyatımızın vacib, ayrılmaz hissəsidir. Həmin abidələri canlı görməyə daha çox üstünlük versəm də, müasir tələblərdən yan keçmək doğru deyil.

**- Əsərlərinizi xarici dillərə tərcümə etməklə onların dünya ictimaiyyətinə tanıdılmasına müəyyən dərəcədə nail olmusunuz. Gənc alimlərə tövsiyyələrinizi bilmək istəyirik.**

- Bəli. Azərbaycan alimlərinin əsərlərini beynəlxalq səviyyədə tanıtmaq üçün onları tərcümə etmək, müasir tələblərə uyğun təqdim etmək vacibdir.

Mən bu il London səfərimdən çox zövq aldım. Mən bu əsərimlə sübut etdim ki, daş dövründə müharibələr olmayıb, insanlar bərabər yaşayıblar, ovçuluqla məşğul olublar. Bu dövrdə əldə edilən nailiyyətlər bəşəriyyətin sonrakı inkişafına təkan verib. Mərhum alimimiz Şahin Fazil deyir ki:

*İstəyirəm daş dövrünə qayıdaq,*
*Daş dövründə rüşvət alan yox idi.*
*İstəyirəm daş dövrünə qayıdaq,*
*Daş dövründə eynək taxan yox idi.*
*İstəyirəm daş dövrünə qayıdaq,*
*Daş dövründə daşı satan yox idi.*

Gənclərimizə tövsiyə edirəm ki, kitab oxumağa çox fikir versinlər. Dövlət televiziyasında, dövrü mətbuatda milli fokloru, mədəniyyəti, incəsənəti, tariximizi və d. elm sahələrini geniş təbliğ etsinlər, Qobustanda, Qazmada olan daş dövrü abidələri və İçərişəhəri yaxşı öyrənsinlər. Hər işin açarı bilikdir. Elmi tədqiqatlar yüksək qiymətləndirilməli, tarixdən ibrət dərsi alınmalıdır. Bu məqsədlə çap ediləcək yeni bukletlərin nəşrində təcrübəli mütəxəssislərin rəyi mütləq nəzərə alınmalıdır. Elmli insanın ağlı və savadı vəhdət təşkil etməlidir. Belə bir varlıq heç zaman bəşəriyyətə xəyanət edə bilməz.

Mən Qarabağ Universitetinə təhvil vermək üçün 100 kitab hazırlamışam. Arzu edirəm ki, həmin ali məktəbdə ustad mühazirələri edim və bu hədiyyəmi onlara təhvil verim. Bu hər bir alimin borcudur. Bu mənim tariximizə qızıl hərflərlə yazılacaq sözlərimdir.

Bu günədək daş dövrü arxeologiyası ilə maraqlanan savadlı jurnalistlərlə çox müsahibələr etmişik, onların hörmətini yüksək qiymətləndirirəm. Mən Bakı Dövlət Universitetinin “Tarix” fakültəsinin müəllim heyətinə, tələbələrə daş dövrü mütəxəssisinin hazırlanması işində kömək etməyə daim hazıram.

Mən “Daş dövrü arxeologiy ası” şöbəsinə təşrif buyuran qonaqlara fotolar olan stendləri, daş dövrü materiallarını göstərərək, bu elmi öyrədirəm. Bu mənim borcumdur.

**- Fikrinizcə, insan istedadlı dünyaya gəlir, yoxsa şəxsi istək, təşəbbüs və səyi ilə inkişaf edir?**

- İnsan özündəki həvəsi, istedadı inkişaf etdirməlidir. Burada gen, qan amilləri də rol oynayır. İnsan məhz öz əməyi ilə mükəmməl nəticələr əldə edə bilər. Zəhmət sayəsində insan böyüməlidir. O, Yaradanı tanımaqla yüksək nailiyyətlər əldə edə bilər. Bu gün bəşəriyyətdə ictimai-siyasi hadisələr, müharibələr sürətlə inkişaf edir. Mənim tədqiq etdiyim tarixi dövrün açıqlanmasında arxeoloji tapıntılar ən mühümdür. Dünya alimləri də paleontoloji, epiqrafik və digər materialları öyrənəndə məhz arxeoloji tapıntılara üstünlük verirlər. Çünki bunları saxtalaşdırmaq qeyri-mümkündür.

**- Mən bilirəm ki, sizin hətta gündəlik həyat tərziniz də nümunəvidir, layiq görüldüyünüz təltiflər bunun ən bariz nümunəsidir. Ümidvarıq ki, gənclər sizdən faydalanacaqlar. Sizə can sağlığı, yeni yaradıcılıq uğurları arzulayıram. Məhz sizin sayənizdə arxeologiya elmimizin ən qədim dövrü elmi yeniliklərlə daha da zənginləşəcək. Siz bir alim olaraq ən mükəmməl qiymətə layiqsiniz.**

***Müsahibəni yazdı:***
***Aygün Məmmədova,***
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Tarix üzrə fəlsəfə doktoru*